Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Yubilyar kitablar

Yaddaş kitabçası

Bakı – 2017

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Yubilyar kitablar:** Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış 2017-ci il yubilyar kitabların siyahısı / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova, S. Əhmədova ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017. -34s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Giriş

Uşaqların dünyagörüşlərinin və biliklərinin artırılması üçün ədəbiyyatımızın təbliği işinin gücləndirilməsi, kütləvi tədbirlərin təşkili kitabxananın əsas fəaliyyətindən biridir.

2017-cı ildə isə kitabxananın elmi-metodika şöbəsi də bu məqsədlə tariximizin, ədəbiyyatımızın təbliğat işini günün tələbləri səviyyəsində quraraq, yubiley tədbirləri üzrə şəhər və rayon uşaq kitabxanalarında keçiriləcək tədbirlərə köməklik məqsədilə müxtəlif metodiki vəsaitlərin hazırlanması işlərini həyata keçirmiş, kitabxana işçiləri, məktəb, lisey, orta məktəb, təhsil və mədəniyyət müəssələri işçilərinin istifadəsi üçün metodik vəsaitlər hazırlamışdır. Şöbədə vəsaitlərlə yanaşı, yeniyetmələrə ədəbiyyatımızın keçmiş incilərini unutdurmamaq üçün bu il yubileyi olan əsərlərin və kitabların siyahısı kimi yaddaş kitabçası hazırlamağı vacib bildik. Bu yaddaş kitabçasını hazırlamaqda məqsəd indiki oxuculara müasir tipdə təqdim edilən nəşrlərin ilk çap variantı haqqında bacardığımız qədər məlumat verməkdir. Axı bu kitabların bir çoxu onların valideyinlərinin belə sevimli kitabı olmuşdur.

## Abdulla Şaiq









Abdulla Şaiqin uşaqlar üçün yazdığı yubilyar kitabları sırasında bu il “Gözəl bahar” kitabının 105, “İldırım” və “Tülkü həccə gedir” kitablarının isə 90 illik yubileyidir. Bu il uşaqlar və yeniyetmələr üçün yazdığı “Gözəl Bahar” pyesinin 1912-ci ildə kitab halında çap edilməsindən 105 il ötür. Mənbələrə əsasən, bu əsərlə Abdulla Şaiq uşaq dramaturgiyasının əsasını qoymuşdur. Bu əsərdə Baharla qışın timsalında həyat, ümid və xoşbəxtliklə zülm və fəlakət törədən qüvvələr arasında gedən kəskin mübarizə təsvir edilir. Və Baharın ordusuna daxil olan Yer, Su, Qaranquş, Torpaq, Çiçəklər, qışın “ordusu” Boran, qar üzərində qələbə çalaraq, şən və xoşbəxt həyatı bərqərar edirlər.

A. Şaiqin kiçik yaşlı uşaqlar üçün yazdığı "Tülkü həccə gedir" nağılının ilk variantının 1927-ci ildəki nəşrindən də artıq 90 il ötür. Hələ də dərsliklərə salınan, ssenarisi əsasında cizgi filmi çəkilən nağıl balacalar tərəfindən sevilir.

Bu hekayə və pyeslər müəllifin sağlığından indiyədək dəfələrlə seçilmiş əsərlərində yenidən işıq üzü görmüşdür. Kitabxanamıza gəlsəniz siz də bu əsərləri yeni nəşrlərdə oxuya bilərsiniz.

Şaiq A. Gözəl bahar : cocuqlara və xanım qızlara iki pərdədə mənzum teatr. – Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1912 . – 24 s.

Şaiq A. Gözəl bahar : pyes // Seçilmiş əsərləri. Üç cilddə. – Bakı : Avrasiya Press, 2005. – C.III. – S. 277.

Şaiq A. Tülkü həccə gedir : mənzum hekayə // Seçilmiş əsərləri. Üç cilddə. – Bakı : Avrasiya Press, 2005. – C.III. – S. 75.

## Böyükağa Talıblı






Görkəmli ictimai xadim, yazıçı və jurnalist B. Talıblı da gənc yaşlarından ədəbiyyata böyük maraq göstərmişdir. Talıblının ilk hekayəsi "Yaxşı məsləhət hər şeydən yaxşıdır" hekayəsidir. O, ilk dəfə hekayəni kitabça halında 1905-ci ildə Bakıda "Orucov qardaşlarının elektrik mətbəəsi"ndə çap etdirmişdir. Bu il eyni adlı kitabın nəşrindən 105 il keçir. O, "Qırx zopa", "Xeyir iş", "Dirək" və s. povestləri də ayrıca kitabça halında çap olunmuşdur. Bu il "Qırx Zopa" povestinin ilk çapından da 90 il ötür. Kitabxana fondunda saxlanılan 1983 - cü il, 1969 - cu il "Seçilmiş əsərlər" ində bu hekayələr verilmişdir, Həmçinin fondda 1971- ci ildə çap edilmiş "Dirək" və 1969-cu ildə çap edilmiş "Erkək Tükəzban" kitabları da vardır. Oxucular bu kitablarda yubileyi olan həmin əsərlərlə tanış ola bilərlər.

**Talıblı B.** Seçilmiş əsərləri : Hekayələr, pyeslər . - Bakı : Yazıçı, 1983. – 188 s.

**Talıblı B.** Yaxşı məsləhət hər şeydən yaxşıdır : hekayə // Seçilmiş əsərləri. – Bakı : Yazıçı, 1983. – S. 13.

**Talıblı B.** Qırx zopa : hekayə // Seçilmiş əsərləri. – Bakı : Yazıçı, 1983. – S. 44.

## Cəlil Məmmədquluzadə







Bu il Cəlil Məmmədquluzadənin “Qurbanəli bəy” kitabının çapından 110 il keçir. “Qurbanəli bəy” C. Məmmədquluzadənin 1907 ildə ilk dəfə "Qeyrət" mətbəəsində kitabça kimi çap olunmuş, sonralar ədibin müxtəlif kitablarına daxil edilmiş hekayəsidir. Mövzusu Azərbaycan mülkədarlarının həyatından alınmış bu hekayənin baş qəhrəmanı Qurbanəli bəydir. Məşhur mollanəsrəddinçi rəssam Oskar Şmerlinq bu kitaba çox düşündürücü və cəlbedici karikaturalar çəkmişdir. Bu kitab Qafqaz Təhsil idarəsinin xüsusi tapşırığı ilə xalq məktəblərində rəğbətlə qarşılanmış və yenidən çap edilmişdir.

Eyni zamanda bu il Cəlil Məmmədquluzadənin “Bəlkə də qaytardılar” kitabının da nəşrindən 90 il ötür. Əsər ilk dəfə “Yeni yol” qəzetində dərc edilmişdir. Bakıda isə 1927-ci ildə əski əlifba ilə 1928-ci ildə isə latın qrafikası ilə kitab halında nəşr edilmişdir.

“Bəlkə də qaytardılar” hekayələr kitabının ilk nəşrinə yazıçı haqqında 5 səhifəlik müqəddimə də daxil edilmişdir. Müqəddiməni aşağıdakı şəxslər yazmışlar:
1. Çiçerrin Georgi Vasilyeviç ( 1872-1936 )
2. “Raboçi” qəzeti – Bakinski raboçi qəzeti
3. Corc Nataniye Kerzon – ingilis ictimai xadimi
4. Musa Nağıyev – milyonçu
5. Əliağa Vahid – Azərbaycan şairi

Kitabda Cəlil Məmmədquluzadənin 20 hekayəsi toplanmışdır. Kitab ədibin ilk hekayələr kitabıdır. Bu kitabda müəllifin “Şərq fakültəsi”, “Taxıl həkimi”, “Hamballar”, “Şeir bülbülləri”, “İki ər”, “Zırrama”, “Şəhər və kənd”, “Qoşa balınc”, “Bəlkə də qaytardılar” və s. hekayələri toplanmışdır. Kitabda yer alan bu hekayələrin çoxu Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında verdiyi sərəncama əsasən dörd cilddə nəşr edilən” əsərlərinin I cildində verilmişdir. Kitabda olan həmin hekayələr bunlardır:

1. Məmmədquluzadə C. Şərq fakültəsi : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 260
2. Məmmədquluzadə C. Taxıl həkimi : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 277
3. Məmmədquluzadə C. Hamballar : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 267
4. Məmmədquluzadə C. Şeir bülbülləri : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 288
5. Məmmədquluzadə C. İki ər : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 309
6. Məmmədquluzadə C. Zırrama : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 239
7. Məmmədquluzadə C. Şəhər və kənd : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 323

8. Məmmədquluzadə C. Qoşa balınc : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 333
9. Məmmədquluzadə C. Bəlkə də qaytardılar : hekayə // Əsərləri. dörd cilddə. – Bakı : Öndər, 2004. – C.I. – S. 281.

Kitabxanamızda həmçinin 1962-ci ildə kiril əlifbası ilə çap olunmuş “Qurbanəli bəy”, “Bəlkə də qaytardılar”, “İki alma”, “Yuxu” müəllifin müxtəlif felyetonları toplanmış kitabları fondda qorunub saxlanılır.

## Emin Mahmudov




Emin Mahmudov ədəbi yaradıcılığa şeirlə baslasa da, yaradıcılığında elmi fantastikaya üstünlük vermişdir. Onun “RT-1” adlı ilk elmi-fantastik hekayəsi 1952-ci ildə Pioner jurnalında dərc olunmuşdur. “Günəş şəhəri” ilk elmi-fantastik hekayələr məcmuəsi isə 1953-cü ildə “Uşaqgəncnəşrdə” çap edilmişdir. 1957-ci ildə çap edilmiş “Kainat gəmisi” fantastik tərzdə yazılmış əsərdir. “Kainat gəmisi” kitabının bu il çapından 60 il ötür.

Mahmudov E. Kainat gəmisi : elmi-fantastik povest. – Bakı : Uşaqgəncnəşr, 1957. – 192 s.

Kitabxananın qızıl fonunda müəllifin “Kainat gəmisi” və “Qeyb olmuş səslər” kitabları vardır. Yazıçı dünya və rus ədəbiyyatında elmi-fantastik üslubda yazılmış bir çox məşhur əsərləri oxumuş, öyrənmiş, sovet elminin qabaqcıl nailliyyətlərini mənimsəmiş, təcrübə ilə elmin vəhdətini müəyyən edən cəhətləri diqqətlə izləmiş və öz hekayələrində bu cəhətləri işıqlandırmağa çalışmışdır.

## Eynulla Ağayev




Eynulla Ağayevin ilk hekayəsi “Balıqçı Kamil” 1928-ci ildə Tiflisdə buraxılan “Qızıl Şəfəq” jurnalının 12-ci sayında çap olunmuşdur. İlk kitabı 1942-ci ildə kiçikyaşlılar üçün yazdığı və “Uşaqgəncnəşr” tərəfindən nəşr edilən “Alagöz” kitabıdır. Hekayə müharibə şəraiti, kapitan və əsgərlərin şücaətindən və səngərlərdə baş verən maraqlı əhvalatdan bəhs edir. Bu il həmin kitabın 75 illk yubileyidir. Kitabxananın Qızıl fondunda bu kitab saxlanılır.

**Ağayev E.** Alagöz ; red. Ş. Abasov. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1942. - 30 s. : il. ; 16 sm. - kiril əlifbası ilə. - 4000 экз.

## Əbdürrəhim bəy Haqverdiyev











Sovet dövrü Azərbaycan ədəbiyyatının ilk yaradıcılarından olan Ə. Haqverdiyev klassik realist dramaturgiyamızı dolğun məzmunlu əsərləri ilə zənginləşdirən qüdrətli sənətkarlarımızdandır. 1907-ci ildən 1927-ci ilə qədər "Molla Nəsrəddin" jurnalında çalışan Əbdürrəhim bəy Haqverdiyev burda hekayələrini, "Mozalan bəyin səyahətnaməsi", "Millət dostları" kimi ictimai məqalələrini müxtəlif imzalarla çap etdirmişdir. Ədib 1927-ci ildə ədəbi-ictimai fəaliyyətində otuz beş illik yubileyi ilə bağlı "Marallarım" adı ilə satirik hekayələrini kitab kimi çap etdirir. Kitabda müəllifin 1910-1913-cü illərdə "Molla Nəsrəddin" jurnalında işlədiyi illərdə "Ceyran Əli" imzası ilə çap etdirdiyi hekayələri toplanır.

Bu hekayələrdə cəmiyyəti ədalətə sürükləyən yalançı, fırıldaqçı din xadimlərini, mollaları, "maralllarım" obrazında ümumiləşdirərək kəskin gülüşlə ifşa edir. Ədibin yaradıcılıq məhsulu olan bu əsərlər ilk dəfə 1927-ci ildə kitab halında nəşr edilsə də, sonradan dəfələrlə təkrar nəşr edilərək oxucuların ixtiyarına verilmişdir. Onun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 12 yanvar sərəncamına əsasən iki cilddə nəşr edilmiş "Seçilmiş əsərləri" kitabxana oxucularının istifadəsindədir. Kitabda bu əsərlərdən "Marallarım" hekayəsi verilmişdir.

Marallarım : hekayə // Seçilmiş əsərləri. – iki cilddə. – Bakı : Lider, 2005. – C.II. – S.149

## Əbdül Kazım




Uşaqlar üçün maraqlı hekayələr müəllifi Əbdül Kazım qısa ömür sürsə də, nağılları ilə çox gözəl nümunələr qoyub getmişdir. Onun "Sayıq uşaqlar", "Elşad", "Pəhlivan Nəzər və igid qardaşı" kitabları vardır. İlk kitabı olan "Sayıq uşaqlar" bu il yubilyar kitablar siyahısına daxildir. Kitabın ilk nəşrindən 80 il keçir. 12 səhifədən ibarət kitabçanın ilk nəşrindən sonra balaca oxucular tərəfindən sevildiyinə görə, 1939-cu ildə yenidən çap edilmişdir. Kitabxananın qızıl fondunda müəllifin "Pəhlivan Nəzər və igid qardaş" kitabı saxlanılır.

Sayıq uşaqlar. – B.: Azərnəşr, 1937. – 12 s.

Kazım Ə. Pəhlivan Nəzər və igid qardaş : Temas xalq nağılından alınmışdır ; red. Ə. Abasov ; rəs. Vdovinoq. – Bakı : Azərnəşr, 1938. - 31 s. : il. ; 22 sm. - kiril əlifbası ilə.

Sayıq uşaqlar. – B.: Uşaqgəncnəşr, 1939. – 17 s.

## Əbülqasım Hüseynzadə



Əbülqasım Hüseynzadənin Azərbaycan folklorunun toplanması və nəşri sahəsində mühüm xidmətləri vardır. Onun 1926-cı ildə nəşr edilmiş "Atalar sözləri" kitabı, Sovet hakimiyyəti illərində nəşr olunmuş ilk Azərbaycan atalar sözü kitabıdır. Sonrakı illərdə o, 1938, 1949, 1956, 1965, 1981, 1986 "Atalar sözü", 1944-cü ildə "El sözləri", “Tapmacalar”, "Hikmətli sözlər", 1961-ci ildə "Müdrik sözlər", 1970-ci ildə "Müxtəsər rusca-azərbaycanca və azərbaycanca-rusca atalar sözü lüğəti", "Atalar sözü və zərb-məsəllər" və başqa kitabları çapa hazırlayaraq nəşr etdirmişdir. Bu il müəllifin 1942-ci ildə işıq üzü görən “Tülkü və xoruz” nağılı əsasında çap edilən eyniadlı kitabın ilk nəşrindən 75 il keçir.

## Ömər Faiq Nemanzadə







1927-ci ildə təqaüdə çıxandan sonra dərslik yazıb, elmi işlə məşğul olan Ömər Faiq Nemanzadənin ilk kitabı "Dəvəti-nəşri-asarə" adlanır. Kitab 1905-ci ildə "Qeyrət" mətbəəsində çap edilmişdir.

Bu il müəllifin ikinci kitabı olan "Üçüncü il" kitabının ilk nəşrindən 90 il ötür. Kitab müxtəlif illərdə bir neçə dəfə nəşr edilmişdir.

1. Dəvəti-nəşri-asarə. – Tiflis: Qeyrət, 1905. – 36s.
2. Üçüncü il. – B.: Azərnəşr, 1927. – 118s.
3. Üçüncü il. – B.: Azərnəşr, 1928. – 130s.
4. Üçüncü il. – B.: Azərnəşr, 1929. – 160s.
5. Üçüncü il. – B.: Azərnəşr, 1930. – 160s.
6. Üçüncü il. – B.: Azərnəşr, 1930. – 160s.

## Rəsul Rza






"Gənc işçi qəzeti" redaksiyasında tərcüməçi kimi ilk vaxtlar işə düzələn Rəsul Rza, şeir, məqalə və oçerklərini müntəzəm olaraq çap etdirməyə başlayır. Yaradıcılıq yoluna isə "Çapey" adlı ilk şeirlər kitabı ilə başlayır. "Çapey" kitabı bu il yubilyar kitablar sırasındadır. 40 səhifəlik bu kitabda nəşr edilmiş "Bolşevik yazı" şeiri ilə Rəsul Rza öz yaradıcılıq yolunu elan edir. Sonrakı illərdə şairin müxtəlif kitabları çap edilmişdir. Son illərdə kitabları dəfələrlə təkrar nəşr edilmişdir. Bu nəşrdə kitaba daxil olan şeirlərdən də verilmişdir.

Rza R. Çapey. – B.: Azərnəşr, 1932. – 40 s.

Rza R. Çapey : şeir // Seçilmiş əsərləri. – beş cilddə. – Bakı : Öndər, 2005. – C.III. – S.101-108.

# Süleyman Rəhimov







Süleyman Rəhimov Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəlrindən biridir. Onun yaradıcılığı Azərbaycan nəsrinin böyük bir inkişaf dövrü ilə sıx bağlıdır.

Xalq qəhrəmanlarının böyük yer aldığı "Aynalı" romanı Süleyman Rəhimov tərəfindən 1942-ci ildə kitab halında çap edilmişdir. Kiabın çapından bu il 75 il keçir. Povestdə o, xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərin təkrarsız obrazlarını yaradaraq, oxuculara bu qəhrəmanları sevdirmişdir.

**Rəhimov S.** Seçilmiş əsərləri. İki clddə . Bakı : Şərq - Qərb, 2005. -

## Süleyman Sani Axundov







Maarifpərvər Süleyman Sani Axundovun bədii əsərlərində, pedaqoji-elmi fəaliyyətində və zəngin həyatında işıqlı fikirlər, nurlu xeyirxah əməllərin təbliği əsas yer tutur. Müəllimlərlə maarifçilər, xeyirxah ziyalılarla nəcib tələbələr, məsum uşaqlarla müdrik qocalar – Süleyman Saninin elmə təhsilə səsləyən əsərlərinin nümunəvi qəhrəmanlarındandırlar. Müəllifin “Zarafat” hekayəsi kitab halında 1927-ci ildə nəşr edilmişdir. Bu hekayənin kitab kimi çap edilməsindən 90 il keçsə də, hekayə bir neçə dəfə yenidən nəşr edilmiş, yazıçının toplularına daxil edilmişdir. Mövzuca iki qismə ayırılan ədibin hekayələrinin bir hissəsi keçmiş, ikinci qismi isə müasir həyatdan alınmış əsərlərdir. Bu baxımdan “Zarafat” hekayəsi bir aktyorun real həyat düşüncələrinin əsasında qurulub. Mövhumatdan düşüncələrini xilas edə bilməyən aktyor Şaki dostlarının zarafatı nəticəsində dəhşətli hala düşür

Zarafat. – Bakı : Azərnəşr, 1927. – 108 s.

## Tağı Şahbazi Simurğ




Nasir, publisist Tağı Şahbazi Simurğun "Qeyrət" kitabının da çapından bu il 85 il ötür. Kitab 1932-ci ildə nəşr edilmişdir.

## Tofiq Mahmud







Həyatını uşaq ədəbiyyatına həsr etmiş, maraqlı uşaq şeirlərinin müəllifi Tofiq Mahmudun "Dibçək" adlı şeirlər kitabının nəşrindən bu il 55 il ötür. Kitabda müəllifin "Quşun nəğməsi", "Su", "Tik, ay nənə", "Məzəli oğlan", "Ev süpürən qız", "Kəpənək", "Acıqlanma anacan", "İlqar", "Mişar" şeirləri yer almışdır. Ümumiyyətlə, Tofiq Mahmudun bütün əsərləri üç cilddə 2012-ci ildə çapdan çıxmışdır. Bu və digər uşaq şeirləri, tapmacalar və uşaq poemaları kitabın cildlərində toplanmışdır.

Mahmud T. Dibçək : uşaq şeirləri. – Bakı : Uşaqgəncnəşr, 1962. – 18 s.

## Tofiq Mütəllibov







Tofiq Mütəllibovun adı oxuculara yaxşı tanışdır. Onun “Bəxtəvər uşaqlar” adlı ilk şeirlər kitabı 1953-cü ildə nəşr edilmişdir. Bundan sonra bir-birinin ardınca şairin “İşıq”, “Bağçada yolka”, “Şeirlər”, “Görüş”, “Ləpələrin nəğməsi”, “Sevənlər üçün”, “Kəkliklər oxuyanda”, “Mehriban baxışlar”, “Gözəllikdən doymur ürək” və başqa kitabları nəşr edilmişdir.
1972-ci ildə isə Tacikistanın “Maarif” nəşriyyatı isə Tofiq Mütəllibovun “Cücələrim” adlı şeirlər kitabını çap edib.

Həmçinin Tofiq Mütəllibov yüzdən artıq mahnı mətninin müəllifidir. Bəstəkar Qənbər Hüseynli tərəfindən şairin sözlərinə bəstələnmiş “Cücələrim” uşaq mahnısı dünyanın bir çox ölkələrinin dilində səslənir. Bağçada yolka uşaq kitabının ilk nəşrindən bu il 60 il ötür. Kitab yubilyar kitablar siyahısına daxildir.
Mütəllibov T. – Bağçada yolka. – B.: Uşaqgəncnəşr, 1957. - 24 s.

## Vaqif Nəsib







Bədii yaradıcılığa 1956-cı ildən dərc etdirdiyi şeirlərlə başlayan Vaqif Nəsibin ilk kitabı 1962-ci ildə çap edilən “Çəpiş” adlı kitabıdı. Bu kitab balaca oxucuların görüşünə maraqlı şəkilləri və rəngləri ilə gəlmişdi. Bu il həmin kitabın çapından 55 il ötdüyündən kitab yubilyar kitablar sırasındadır. Bundan başqa müəllifin “Görüş” (1964), “Durna günü”(1969), “Ata yolu” (1971), “Salam əskipara yolu” (1974), “Bağçadan məktəbə” (1977), “Ömürdən, gündən” (1979), “Uzundərə” (1981) kitabları nəşr edilmişdir.

Çəpiş. – B.: Uşaqgəncnəşr, 1962. – 14s.

# Vəli Xuluflu







Vəli Xuluflunun şifahi xalq ədəbiyyatının toplanmasında böyük əməyi vardır. Onun Azərbaycan folklorşünaslığı qarşısında ən böyük xidmətlərindən biri qəhrəmanlıq dastanı olan "Koroğlu" dastanı ilə bağlıdır. Vəli Xuluflunun dastanın ilk dəfə toplanıb nəşr olunmasında böyük əməyi olmuşdur. 1925-1926-cı illərdə Tovuzda elmi ezamiyyət zamanı dövrün məşhur el sənətkarı aşıq Hüseyn Bozalqanlının dilindən topladığı "Koroğlu" dastanının qolları müxtəlif nəşrlərdə işıq üzü görmüşdür. Bu il dastanın ilk iki qolunun nəşrindən 90 il ötür. 1929-cu ildə isə dastanın Bozalqanlının dilindən eşitdiyi dörd qolunu və altı nağılvarı hekayətini kitab halına salıb çap etdirmişdir. Dövrümüzdə "Koroğlu" dastanından parçalar daha da maraqlı şəkildə rəngarəng və şəkilli olaraq çap edilmişdir. Kitabxanada oxuculara bu qəhrəmanlıq dastanının təbliği xüsusi yer tutur.

## Yusif Şirvan







Ədəbi yaradıcılığa 30-cu illərin əvvəllərində başlayan Yusif Şirvanın (Əsgərov) mətbuatda oçerk, hekayə, povest, roman və məqalələri müntəzəm olaraq çap edilmişdir. Məktəbyaşlı uşaqlar üçün yazdığı "Bizim yaz" hekayəsi əsasında 1932-ci ildə çap etdirdiyi ilk kitabı olan "Bizim yaz" kitabının nəşrindən bu il 85 il ötür. Kitabda müəllifin maraqlı hekayəsi verilmişdir. 16 səhifədən ibarət bu kitab kiçikyaşlı oxucular üçün səmərəli bir töhfə olmuşdur.

Həmçinin müəllifin "Biz yenə gələrik", "Bizim elin qızları" kitablarının nəşrindən də bu il 75 il keçir.

Bizim yaz. – B.: Azərnəşr, 1932. – 16 s.

## Yusif Vəzir Çəmənzəminli






Bu il Yusif Vəzir Çəmənzəminlinin ilk çap olunmuş kitablarından olan "Üç hekayə", (Çəmənzəminli Y. Üç hekayə. – Bakı : Səda, 1912. – 34 s.) "Yeddi hekayə" (Çəmənzəminli Y. Yeddi hekayə. – Bakı : Orucov qardaşlarının elektrik mətbəəsi, 1912. – 43 s.) kitablarının nəşrindən 105 il ötür. Onun 1911-1913-cü illərdə Bakıda çap etdirdiyi "Üç hekayə" ilə yanaşı, "İki hekayə", "Yeddi hekayə" kitablarında verilmiş hekayələrində real həyat və mühitdən alınan hadisələr, surətlərlə yığcam, koloritli və konkret lövhələrlə əks edilmişdir. Müəllif bu əsərləri ilə xalq nağıllarının ruhunu, Azərbaycan dilinin sehrini qoryub saxlamış, dilinə, ədəbiyyatına ömrünün sonuna qədər yetərincə xidmət etmişdir. 1911-ci ildə ilk nəşr edilən kitabından sonra sağlığına qədər 24 kitabı nəşr edilmiş müəllifin bugünə qədər çap edilən əsərlərinin içərisində ən əhatəlisi 2004-cü ildə İlham Əliyevin sərəncamı ilə nəşr edilən üç cildliyidir.

## Zeynal Cabbarzadə




Kiçik yaşlarından yaradıcılığa başlayan Zeynal Cabbarzadənin eyniadlı hekayə kitabında, kitabın aliliyindən, şahın belə qiymətli kitab qarşısındakı acizliyindən bəhs olunur. Kitab ilk dəfə 1947- ci ildə çap olunmuşdur. Yubilyar kitab olan " Əfzələddin və şah" kitabı kitabxanamızın qızıl fondunda saxlanılır.

Cabbarzadə Z. Əfzələddin və şah ; red. M. H. Seyidzadə ; rəs. G. Salamova. - Bakı : Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1947. - 16 s. : il. ; 13 sm. - kiril əlifbası ilə

## Xarici yubilyar kitablar




Rus yazıçısı Qriboyedov məşhur “Ağıldan bəla” pyesində öz dövrünün kübar həyat tərzi, dvoryan-saray zadəganlığının mühafizəkarlığını ustalıqla qələmə almışdır. “Ağıldan bəla” komediyası həm cəmiyyət, həm də ədəbiyyatımız üçün böyük məna və əhəmiyyətə malik olduğundan kitabxanamızda oxunaqlı əsərlərdəndir. Əsər kitab halında 1862-ci ildə çap edilmişdir. Bu il kitabın çapından 155 il ötdüyündən kitab yubilyar kitablar sırasındadır.

Qriboyedov A.S. - Ağıldan bəla. - Bakı: Avrasiya press. - 2006, 160 s.

# Ernest Heminquey






XX əsrin görkəmli Amerika yazıçısı Ernest Heminquey öz bədii yaradıcılığı ilə Amerika ədəbiyyatının şöhrətini bütün dünyada təsdiqlədən böyük söz ustadlarından biridir. O, *"Əlvida silah", "Fiesta" romanlarının, "Sahib olmalı və ya olmamalı" povestinin, "Beşinci kolonna"* və b. hekayə və məcmuələrin müəllifidir. 1952-ci ildə yazdığı "Qoca və dəniz" povesti Kuba balıqçılarının həyat və əməyinə həsr edilmişdir. Bu povestə görə Heminqueyə 1953-cü ildə Nobel mükafatı verilmişdir. Bu il həmin kitabın ilk nəşrindən 65 il ötür. Bu əsər nəinki Amerikada, dünyanın bir çox ölkələrində şöhrət qazanmışdır. Kitabxanamızın fondunda kitabın 1952-ci nəşri qalmasa da, 1959-cu il tərcümə edilmiş variantı vardır.

Ernest Heminquey. - Seçilmiş əsərləri. - Bakı: Şərq - Qərb, 2010. - 752 s.

Ernest Heminquey. - Qoca və dəniz. - Bakı: Azərnəşr, 1959. - 79 s. (kiril əlifbası ilə)

## Tven Mark







Amerika yazıçısı Mark Tvenin "Şahzadə və dilənçi" romanı bəzi ədəbiyyatşünasların fikrincə, cəmiyyətdə ədalətsizliyi satirik şəkildə ifşa etmək məqsədilə yazılmış gözəl əsərlərdəndir. İlk dəfə 1882-ci ildə çap edilən roman dövrümüzdə də yeniyetmələrin oxumaq üçün xarici ədəbiyyat nümunələri arasında müraciət etdikləri maraqlı əsərlərdəndir. Əsər iki damcı su kimi bir-birinə bənzəyən oğlanların – ingilis şahzadəsi Eduard Tyudorun və balaca dilənçi Tom Kentin qeyri-adi taleyi haqqında qəribə bir macəradır. Hansısa bir təsadüf nəticəsində bu oğlanlar yerlərini dəyişir və dilənçi oğlan kral, kral isə dilənçi olur.

Mark Tven'in çok sevilən bu romanı XVI əsrdən bu günümüzə qədər gəlib çıxmış ən maraqlı əsərlərdəndir. İlk dəfə 1882-ci ildə çap edilən kitab bu il yubilyar kitablar sırasındadır.

**Tven Mark.** - Seçilmiş əsərləri. - Bakı: Şərq - Qərb, 2009.

**Tven Mark. -** Şahzadə və dilənçi. - Bakı: Altun Kitab, 2005. - 112 s.

## İvan Sergeyeviç Turgenev







İvan Sergeyeviç Turgenev XIX əsrin ikinci yarısında realist rus ədəbiyyatı tarixində özünəməxsus yer tutur.

İvan Sergeyeviç Turgenevin (1818-1883) "Atalar və oğullar" romanı – XIX əsrin 60-cı illərində yazılmış və o dövr üçün çox məşhur olmuş əsərin baş qəhrəmanı Yevgeni Bazarov gənclərin təqlid nümunəsi olmuşdur. "Atalar və oğullar" romanında, o dövr rus ədəbiyyatının ən xarakterik xüsusiyyətlərindən biri – ədəbiyyatın ictimai əhvali-ruhiyyəsinin real axını ilə sıx əlaqəsi daha tam şəkildə öz ifadəsini tapmışdır.

# Şarl Perro




1697-ci ildə Şarl Perronun “Сказки матушки гусыни, или Истории и сказки былых времен с поучениями” – “Mənim ana Qazımın nağılları və ya keçmiş zamanların ibrətamiz əhvalatları və nağılları” toplusu ilk dəfə çap edilmişdir. Topluya “Küllücə və ya Büllur başmaq”, “Çəkməli pişik”, “Cırtdan”, “Göy Saqqal” nağılları daxil idi. (1697) Kitab rus dilində 1768-ci ildə ilk dəfə “*Сказки о волшебницах с нравоучениями*” adı altında çap edilmişdir. Sonralar Şarl Perronun nağılları əsasında Rossininin “Zoluşka”, Bartokun “Göy saqqal” operaları, Çaykovskinin “Yatmış gözəl”, S.S. Prokofyevin “Zoluşka” baletləri yaradılmışdır. Həmin nağıllar daxil etdiyi müəllifin kitabından bu il 320 il keçir

Fransa tarixçilərinin fikrinə görə, onun nağıllarının bəzi personajları həyatda mövcud olan real şəxslərin – qəsr sahiblərinin, o cümlədən Uaronun prototipləridir.

# Mixail Şoloxov




Rus ədəbiyyatının tanınmış nobelçisi Şoloxovun 1956-cı ildə yazdığı II Dünya müharibəsindən bəhs edən “İnsanın taleyi” əsəri sovet dövrü ədəbiyyatında böyük əhəmiyyət daşıyır. Əsər kiçik həcmli olsa da, öz dövrü üçün xüsusi əhəmiyyətlidir. Müəllif SSRİ-nin razılığı ilə Nobel mükafatı alan yeganə sovet yazıçısıdır. Onun yaradıcılığında müharibə dövründən bəhs edən “İnsanın taleyi” povesti çox maraqlı bir əsərdir. 1956-ci ildə yazılan povest 1957-ci ildə nəşr edilib. Bu il povestin kitab halında nəşrindən 50 il ötdüyündən kitabın yubileyidir.

Milxail Şoloxovun “İnsanın taleyi” povesti müharibə mövzusunda yazılmış, ona məşhurluq gətirən ən gözəl əsərlərdəndir. Povest müharibənin insana və insani hisslərinə təsirindən bəhs edir.

Mixail Şoloxov. İnsanın taleyi // Seçilmiş əsərləri. – B.: Şərq-Qərb, 2013. – S.14.

# Yubilyar kitablar
**(yaddaş kitabçası)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:52
Çapa imzalanmışdır:08.12.2017
Tirajı:100
Pulsuz